Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

01.10.2018-ci il tarixli

Fakültə Elmi Şurasının iclasının

Q Ə R A R I

Protokol № 1

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1. “2017/2018-ci tədris ilində dekanlığın gördüyü işin hesabatı və yeni dərs ilində fakültə kollektivinin vəzifələri” barədə Fakültənin tədris məsləhətçisi Z.Abaszadənin çıxışı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedranın tədris-metodik sənədlərinin (kafedranın iş planı; müəllimlərin fərdi iş planı; dərs cədvəlləri; açıq dərslərin cədvəli və s.) dekanlığa vaxtında təqdim edilməsinə, tələb olunan qaydalara uyğun qeydiyyatının aparılmasına nəzarət gücləndirilsin;

2. Kurasiya sistemi ilə tədris aparan kafedraların tədris planlarının, sillabusların dəyişdirilməsi və yenilənməsinə nəzarət edilsin;

3. Kafedra tərəfindən VTM-ə təqdim olunan testlərin profes-sor-dosent heyəti tərəfindən yenidən baxılmasına (testlərin tərtibatı zamanı istinad edilən ədəbiyyatların tədrisdə istifadə olunan materiallara uyğunluğu, testlərdə 2 və ya daha çox düzgün cavabın olmaması və s.) nəzarət edilsin;

4. Qış imtahan sessiyası üçün test sualları noyabrın 1-nə kimi tərtib edilərək VTM-ə təqdim edilsin.

5.Müasir tələblərə cavab verən yüksək ixtisaslı tibb kadrlarının hazırlanması, onlara nəzəri və təcrübi vərdişləri aşılamaq məqsədilə semestrin başlanğıcından kafedralarda TEC-in fəaliyyətinə nəzarət gücləndirilsin;

6. Müəllimlərin dərs jurnallarında aparılan qeydiyyatların dekanlıq tərəfindən təqdim olunan jurnaldakı qeydiyyat ilə eyni olmasına nəzarət edilsin;

7. Universitet əməkdaşlarının müsabiqədə iştiraketmə hüququnun bilavasitə Bal-reytinq qiymətləndirmə sisteminə uyğun aparıldığını nəzərə alaraq əməkdaşların qeyd olunan cədvəldəki bölmələrlə tanışlığı təmin edilsin;

8. Dərslərin keyfiyyətini yüksəltmək və səmərəliliyini artırmaq məqsədilə kafedralarda tədris prosesinin gedişinə və nizam-intizam qaydalarına ciddi nəzarət edilsin.

III. Dekanlığa tapşırılsın ki: Universitetin Elmi Şurasında verilən qərarların icrasına nəzarət etsin.

Sədr: t.e.d., dosent A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva